

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 29 (24.166)

*15 fevral 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Rusiya Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.

Dövlətimizin başçısı, ilk növbədə, Rusiya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrə toxunaraq, əməkdaşlığımızın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev, həmçinin iki ölkənin qanunverici orqanları səviyyəsində qarşılıqlı səfərlərin və əməkdaşlığın əhəmiyyətinə toxundu.

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.

İqor Xovayev regiona səfəri və Rusiyanın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesinə dəstək vermək üçün atdığı addımlar barədə məlumat verdi.

## Prezident İlham Əliyev Qananın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Qana Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Oheneba Lesli Akua Akyaa Opoku-Varenin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev 2019-cu ildə Qoşulmama Hərəkatının Bakıda keçirilən 18-ci Zirvə Görüşündə iştirak etmək üçün Qana Prezidenti Nana Akufo-Addonun Azərbaycana səfərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinə Qananın verdiyi dəstəyin və göstərdiyi etimadın ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırdı, Azərbaycanın təşkilatın sədri kimi peyvənd millətçiliyinə qarşı apardığı fəaliyyəti vurğuladı və bu sahədə yaxşı nailiyyətlərin əldə olunduğunu dedi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində kontakt qrupu ölkələrinin iştirakı ilə gələn ay COVID-19-dan sonrakı dünyaya həsr olunmuş növbəti Sammitə ev sahibliyi edəcəyini bildirdi. Azərbaycan Prezidenti ölkələrimiz arasında siyasi əlaqələrin, iqtisadi-ticari, investisiya qoyuluşu sahələrində əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu vurğuladı.

Səfir də, öz növbəsində, Qana Prezidentinin 2019-cu ildə Azərbaycana səfərini məmnunluqla xatırladı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığını qeyd etdi. Diplomat Azərbaycana Qoşulmama Hərəkatının sədri kimi fəaliyyətində uğurlar arzuladı.

Azərbaycanda yaradılmış infrastrukturdan və əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən məmnunluğunu bildirən səfir ölkəmizin davamlı inkişaf sahəsində təcrübəsinin maraqlı olduğunu qeyd etdi. O, həmçinin ölkələrimiz arasında təhsil, kənd təsərrüfatı, mədən sənayesi kimi sahələrdə əməkdaşlıq üçün imkanların olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına üzv ölkələrə ayırdığı təhsil qrantı çərçivəsində Qanadan olan 10-a yaxın tələbənin ölkəmizin müxtəlif təhsil müəssisələrində ali təhsil aldığını bildirdi.

Səfir təhsil sahəsində əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı, Azərbaycanın neftqaz sahəsində ali təhsil müəssisələrinin rolunu xüsusi qeyd etdi.

Diplomat Azərbaycana mütəmadi səfər edəcəyini, aidiyyəti dövlət orqanları ilə səmərəli əməkdaşlığın qurulacağına və ölkələrimiz arasında yeni əməkdaşlıq sahələrinin müəyyən ediləcəyinə ümidvar olduğunu dedi.



## Prezident İlham Əliyev Anqolanın Azərbaycanda yeni səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Anqola Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Auqusto da Silva Kunhanın etimadnaməsini qəbul edib.

Səfir Auqusto da Silva Kunha etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı vurğuladı ki, Anqola ilə Azərbaycan arasında siyasi əlaqələr yaxşı səviyyədədir, iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığımızın inkişaf etdirilməsi üçün böyük imkanlar mövcuddur. Energetika sahəsini xüsusi qeyd edən Prezident İlham Əliyev ölkələrimizin bu sahədə də əməkdaşlıq imkanlarının geniş olduğunu diqqətə çatdırdı.



Azərbaycan Prezidenti ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Anqolanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi. Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasında aparılan islahatlar çərçivəsində Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik edən ölkənin rotasiya qaydasında BMT Təhlükəsizlik Şurasının daimi üzvü olması təşəbbüsü ilə çıxış etdiyini vurğuladı, Hərəkata üzv dövlətlər arasında bununla bağlı məsləhətləşmələrin aparılmasının vacibliyini qeyd etdi.

Auqusto da Silva Kunha Azərbaycana qeyri-rezident səfir təyin olmasından məmnunluğunu bildirdi və Anqola Prezidenti Joao Lorensonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Anqolanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Səfir bildirdi ki, Anqola müstəqillik əldə etdikdən sonra Azərbaycan bu ölkədə mütəxəssislərin hazırlanmasına böyük töhfələr verib. Diplomat bu xüsusda mütəxəssislərin, mühəndislərin, həkimlərin və hərbçilərin hazırlanmasında Azərbaycanın ali təhsil müəssisələrinin mühüm rol oynadığını diqqətə çatdırdı. Ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu bildirən Auqusto da Silva Kunha Anqolanın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinə dəstək verdiyini vurğuladı və ölkəmizin təşkilatda sədrliyinə uğurlar arzuladı.

Dövlətimizin başçısı dedi ki, Azərbaycan Qoşulmama Hərəkatının sədrliyini qəbul edən zaman təşkilata üzv dövlətlərin problemlərinin gündəlikdə saxlanılacağını xüsusi qeyd etmişdi və dövlətimiz bu məsələyə mühüm əhəmiyyət verir.

Görüşdə, həmçinin elm, təhsil, kənd təsərrüfatı, mədən sənayesi, energetika sahələrində və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev San-Marinonun Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də San-Marino Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Con Matsanın etimadnaməsini qəbul edib.

Səfir Con Matsa etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında siyasi, iqtisadi, turizm sahələrində əlaqələrin genişləndirilməsi üçün imkanlar mövcuddur və bu xüsusda təmaslar daha da fəallaşdırılıb.

Prezident İlham Əliyev San-Marino rəhbərlərinin 2015-ci ildə Azərbaycana səfərini məmnunluqla xatırladı, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına müsbət təsir göstərəcəyinə ümidvarlığını ifadə etdi.

Səfir Con Matsa ölkələrimiz arasında əlaqələrin inkişafı üçün böyük imkanların olduğunu vurğuladı, San-Marinonun Azərbaycanla münasibətləri dərinləşdirməkdə, siyasi, həmçinin mədəniyyət və turizm sahələrində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu dedi. Səfir bundan sonra mütəmadi əsasda Azərbaycana səfər edəcəyini, aidiyyəti dövlət orqanları ilə görüşlər keçirəcəyini və əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.

San-Marinonun İtaliya ilə də çox sıx əlaqəsinin olduğunu vurğulayan diplomat bu çərçivədə də ölkələrimiz arasında, xüsusilə təhsil və turizm sahələrində əməkdaşlıq üçün imkanların mövcudluğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı, öz növbəsində, bildirdi ki, ölkəmizin həm İtaliya, həm də Vatikan ilə çox yaxşı münasibətləri var. İtaliya-Azərbaycan əlaqələri strateji tərəfdaşlıq müstəvisində inkişaf edir. Prezident İlham Əliyev, həmçinin özünün Vatikana və Roma papalarının Azərbaycana səfərlərini məmnunluqla xatırladı. Bu əsnada ölkələrimiz arasında yaxşı əməkdaşlıq imkanlarının olduğunu qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə San-Marinonun işgüzar dairələri arasında birbaşa əlaqələrin yaradılması, San-Marinonun turizm imkanlarının ölkəmizdə təqdim olunması, habelə təhsil sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsinin vacibliyini diqqətə çatdırdı.

**AZƏRTAC**

## Türkiyə Respublikasında zəlzələdən zərərçəkmiş şəxslərə Naxçıvan Muxtar Respublikasından humanitar yardımların göndərilməsi davam etdirilir



6 fevral 2023-cü il tarixdə Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar olmuşdur. Prezident cənab İlham Əliyevin tapşırığı ilə zəlzələdən zərərçəkənlərə yardım məqsədilə Azərbaycan dövləti tərəfindən genişmiqyaslı tədbirlərə başlanılmışdır.

Türkiyədə baş vermiş zəlzələdən zərərçəkmiş insanlara bütün ölkə vətəndaşları kimi muxtar respublika sakinləri də yardım etməyə başlayıblar. Bu məqsədlə Naxçıvanda başladılmış geniş yardım kampaniyası bu gün də davam etməkdədir. Məlumat üçün qeyd edək ki, 8-13 fevral 2023-cü il tarixlərdə muxtar respublikadan zəlzələ bölgəsinə 52 TIR humanitar yardım göndərilmişdir.

Naxçıvan Muxtar Respublikasındakı qurumlar, təşkilatlar, sahibkarlıq subyektləri və muxtar respublika sakinləri tərəfindən zəlzələdən zərərçəkmiş insanlara humanitar yardım məqsədilə ötən müddət ərzində müxtəlif nəqliyyat vasitələrilə kişi, qadın, uşaq paltarları, uşaq bezləri, adyallar, çeşidli ərzaq məhsulları, fərqli ölçülərdə xalçalar, döşək dəstləri, müxtəlif növ təmizlik məhsulları, qızdırıcı sobalar, elektrik plitələri, əl fənərləri, müxtəlifölçülü çadırlar, konteynerlər, çarpayılar, plastik oturacaqlar, plastik qablar, dərman preparatları, generatorlar, çeşidli növlərdə mineral sular və digər zəruri avadanlıqların Türkiyədə zəlzələ bölgəsinə göndərilməsi təmin edilmişdir.

Həmçinin Naxçıvan şəhərində Türkiyədəki zəlzələ qurbanlarının xatirəsinə ehsan verilmiş, zəlzələdən dünyasını dəyişənlərin ruhlarına dualar oxunulmuş, yaralılara şəfalar dilənmişdir. Qeyd edək ki, muxtar respublikadan Türkiyədə zəlzələ bölgəsinə göndərilən humanitar yardımın ümumi dəyəri 14 milyon 774 min 631 manat təşkil edir.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## “Heydər Əliyev İli” ilə bağlı keçiriləcək tədbirlərin təqvim planının müzakirəsi olub

*Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında Prezident cənab İlham Əliyevin 2022-ci il 28 noyabr tarixli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Şəhər Təhsil Şöbəsinin birgə yığıncağı keçirilib.*



Yığıncağı giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva açıb. Bildirilib ki, Ümummilli Liderimiz, müstəqil Azərbaycanın qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilib. Müvafiq sənədə əsasən il ərzində həyata keçiriləcək tədbirlərin təqvim planı Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən icra hakimiyyətlərinə göndərilib. Təqvim planında il ərzində bir çox tədbirlərin keçirilməsi öz əksini tapıb.

Qeyd olunub ki, tədbirin keçirilməsində məqsəd “Heydər Əliyev İli” ilə əlaqədar Naxçıvan Şəhər İcra Hakimiyyəti ilə birgə Naxçıvan Şəhər Təhsil Şöbəsi tərəfindən il ərzində icra ediləcək tədbirlərlə bağlı maarifləndirmə aparmaqla yanaşı, məsul şəxslərin mövzu ilə əlaqədar təkliflərini nəzərə alaraq ümumtəhsil məktəblərində həyata keçirməkdən ibarətdir.

Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Baba Əliyev də çıxışında qeyd edib ki, 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planına uyğun olaraq Naxçıvan Şəhər Təhsil Şöbəsinin tabeliyində olan ümumtəhsil məktəblərində və məktəbəqədər təhsil müəssisələrində də bir sıra tədbirlər həyata keçirilir.

Diqqətə çatdırılıb ki, ümumtəhsil məktəblərinin kitabxanalarında “Heydər Əliyev İli” başlıqlı guşələr yaradılıb, “Heydər Əliyev irsi milli dəyərimizdir”, “Heydər Əliyev və Azərbaycançılıq ideologiyası” mövzularında dəyirmi masa, müxtəlif bilik yarışları, intellektual oyunlar, “Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyəti”, “Ümummilli Liderin həyatı və fəaliyyəti” mövzularında tədbirlər, şeir, rəsm müsabiqələri, viktorinalar keçirilib, şagirdlər tərəfindən “Heydər Əliyev – Xilaskar ömrü” sənədli filmi izlənilib. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin hazırladığı qrafikə əsasən Heydər Əliyev muzeyində 13, 14, 15 və 16 nömrəli tam orta məktəblər üzrə hər bir məktəbin 15 şagirdinin iştirakı ilə açıq dərslər keçilib. Eyni zamanda “Heydər Əliyev İli”nə həsr olunmuş müxtəlif sərgi, festival, rəsm, inşa müsabiqələrinin, kitab müzakirələrinin, dəyirmi masaların, açıq dərslərin, idman tədbirlərinin, viktorinaların, ədəbi-bədii gecələrin, Heydər Əliyev muzeyinə ekskursiyaların təşkili nəzərdə tutulub.

Sonda Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısı aparatının İctimai siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Orxan Məhərrəmov tərəfindən Naxçıvan Şəhər İcra Hakimiyyəti ilə birgə Naxçıvan Şəhər Təhsil Şöbəsi tərəfindən keçiriləcək tədbirlərin təqvim planı iştirakçılara təqdim olunub, təqvim planı ilə bağlı iştirakçılar məlumatlandırılıb, müəllim heyətinin təklifləri dinlənilib, müzakirələr aparılıb.

**✍ Gülcamal TAHİROVA**

## “Debat Çempionatı”nda qaliblər müəyyən olunub

*Naxçıvan Dövlət Universitetində Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə “İdeyanı reallaşdır – 2022” qrant müsabiqəsinin qalibi olan “Naxçıvan Gənclərinin Birinci Debat Çempionatı” layihəsinin bağlanış mərasimi keçirilib.*



Tədbirdə çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev layihənin missiyası barədə danışıb. Bildirib ki, müxtəlif xidmətlərin göstərilməsi zamanı mühüm vasitə hesab olunan kommunikasiya mədəniyyəti keçirilmiş debat yarışlarında peşəkarcasına nümayiş etdirilib. Cəmiyyətin maarifləndirilməsinə xidmət göstərən ideyalar çərçivəsində gənclərin bu cür təşəbbüslərinin dəstəklənməsi hər bir ziyalının əsas məqsədlərindən biri olmalıdır.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı mübahisə, müzakirə və ziddiyyəti özündə birləşdirən fəaliyyət sahəsi kimi debat anlayışının real müstəviyə çıxarılmasını və Naxçıvan gənclərinin maraq dairəsinə daxil edilməsini müsbət hal kimi dəyərləndirib. Diqqətə çatdırılıb ki, interaktiv müzakirə vasitəsi kimi debat gənclərdə analiz etmə bacarığını, deduktiv əsaslandırmanı, faktual mübahisə qabiliyyətini və inandırma üsullarını inkişaf etdirən ünsiyyət metodlarından biridir. Bu gün bu üsullardan ən məharətlə istifadə edən gənclərimiz mükafatlandırmaq üçün buraya toplaşıb.

Qeyd olunub ki, ölkəmizin intellektual səviyyəsi yüksək, ünsiyyət bacarığına malik, real faktlara söykənərək debat cəmiyyətləri qura bilən gənclərə hər zaman ehtiyacı vardır. Onların yetişdirilməsi və qiymətləndirilməsində təhsil müəssisələrinin rolu çox böyükdür.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev bildirib ki, orta və ali məktəblərdə müəyyən reqlamentə uyğun aparılmış debatlar gələcəkdə lokal, ümumxalq və beynəlxalq səviyyədə debat yarışlarının keçirilməsinə zəmin yaradır. Debatlar siyasi mövzularla yanaşı, incəsənət metodu kimi elm və yaradıcılıq məqsədilə həyata keçirildikdə istənilən mövqedə müzakirələri reallaşdırmaq üçün geniş imkanlar açır.

Vətəndaş Cəmiyyəti Debat İctimai Birliyinin əməkdaşı, təlimçi Nurlan Abbasov təlim zamanı qarşılaşdığı məqamları, zəngin fəaliyyəti zamanı zəngin təcrübə əldə etdiyini diqqətə çatdırıb. Rəsmi hissənin sonunda layihənin rəhbəri Bağdagül Cəfərlinin ürək sözləri dinlənilib. Çıxışların yekununda “Debat Çempionatı”nın müxtəlif mərhələlərinə dair hazırlanmış videoçarx izlənilib.

Tədbirin növbəti mərhələsində idarə heyətinin üzvləri, təlimçi, qalib komandalar və iştirakçılar müxtəlif nominasiyalar üzrə mükafatlandırılıb. Çempionatın sonunda “Katarsis” komandası 3-cü, “Helm’s Deep” komandası 2-ci, “ÜMAN” komandası isə 1-ci yerin sahibi olub.

Məlumat üçün onu da bildirək ki, “Debat Çempionatı” “Fərdin şəxsiyyət kimi formalaşmasında valideyn faktoru əsas amildir” mövzusunda keçirilib və seçilən 32 debatçı gəncdən ibarət 8 komanda iştirak edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Təhsildə sosial-psixoloji xidmət mərkəzi yaradılmışdır



Dünən Naxçıvan Müəllimlər İnstitutunda ictimai əsaslarla yaradılan Təhsildə sosial-psixoloji xidmət mərkəzinin təqdimatı olub. Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə təhsil alan magistrantların iştirakı ilə keçirilən tədbirdə ali təhsil ocağının rektoru Azad Novruzov çıxış edib. Təhsildə sosial-psixoloji xidmət mərkəzinin yaradılması zərurətinə toxunan rektor vurğulayıb ki, institutda bu mərkəzin yaradılmasına əsas verən həm kadr potensialı, həm də maddi-texniki baza imkan verir ki, bu istiqamətdə mərkəzləşmiş əsaslı işlər aparılsın.

Qeyd olunub ki, mərkəz “Təhsildə sosial-psixoloji xidmət mərkəzinin işinin təşkilinə dair Əsasnamə” ilə müəyyən edilən səlahiyyətlər çərçivəsində institutun Pedaqogika və psixologiya kafedrası ilə əlaqəli fəaliyyət göstərəcək. Bu qurum həm bakalavriat, həm də magistratura səviyyələrində müvafiq ixtisas üzrə təhsil alanların tədqiqat əsaslı praktik fəaliyyətinin gücləndirilməsinə, muxtar respublikamızın ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəb psixoloqlarına işlərini günün tələbləri səviyyəsində qurmasına xidmət edəcəkdir.

İnstitutun Tədris və tərbiyə işləri üzrə prorektoru, psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev “Təhsildə sosial-psixoloji xidmət mərkəzinin işinin təşkilinə dair” mövzusunda çıxış edərək bildirib ki, mərkəzdə ilkin mərhələdə dörd istiqamət üzrə dəstəyin göstərilməsi nəzərdə tutulmuşdur. Bunlar “İnkişaf və yaş psixologiyası”, “Psixodiaqnostika və psixokorreksiya”, “Korreksiyaedici təlim”, “İnklüziv təhsil” istiqamətləridir.

Hər istiqamət rəhbərləri, institutun Pedaqogika və psixologiya kafedrasının əməkdaşları – psixologiya üzrə fəlsəfə doktoru, dosent Salatın Hacıyeva, baş müəllim-psixoloq Nüşabə Məmmədova, müəllim-deffektoloq-loqoped Almaz Məmmədova və müəllim-psixoloq Aynurə Məmmədova istiqamətlər üzrə görüləcək işlər haqqında məlumat vermişlər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmış və Təhsildə sosial-psixoloji xidmət mərkəzi ilə tanışlıq olmuşdur.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

*Muxtar respublikamızdakı şəhid ailələrinin, şəhid yoldaşlarının, atalarının, analarının qardaş Türkiyə Respublikasına maddi yardım göstərəcəyi, başsağlığı verəcəyi xəbərini eşitdikdə çox sevindim, qürur duydum. Mayası humanist duyğularla, əmin-amanlıqla, dosta sədaqətlə yoğrulmuş xalqımızın böyükdən-kiçiyə hamılıqla bu çətin gündə qardaş ölkənin yanında olması necə qürurlandırmaya bilər ki, insanı? Şəhid valideynlərinin bu birlik və həmrəyliyə qoşulması isə bu hərəkata xüsusi müqəddəslik gətirir.*

## Milli məfkurəyə sadiqlik, qardaş imdadına çağırış

### *Şəhid ailələrindən həmrəylik örnəyi*





Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğunda keçirilən görüşdə, ümumilikdə, 50-yə yaxın şəhid ailəsi iştirak edirdi. Tədbirdə ilk olaraq qardaş ölkədə həyatını itirmiş türk soydaşlarımızın, o cümlədən Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Baş konsul Asip Kaya qonaqları böyük ehtiramla qəbul etdi, onların bu addımını yüksək qiymətləndirdi. O diqqətə çatdırdı ki, Türkiyənin, təxminən, 10 iri bölgəsində baş verən təbii fəlakət insanları istər fiziki, istərsə də psixoloji cəhətdən çox sarsıdıb. Hadisə baş verdiyi gündən etibarən qardaş Azərbaycandan zəlzələdən zərərçəkənlər üçün böyük yardımlar yola salınır, böyükdən-kiçiyə hər kəs əlindən gələni edir. Bu gün şəhid ailələrinin belə müqəddəs bir addım atması, həqiqətən də, təqdirəlayiqdir. Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu qardaşlıq, dostluq həmrəyliyinə və yardıma görə Azərbaycan dövlətinə və xalqına təşəkkür etmişdir.

Vətən müharibəsi şəhidlərindən Vəli Quliyevin atası Kamal Quliyev, şəhid Amin Gülməmmədovun atası Mais Gülməmmədov qardaş ölkəyə başsağlığı verərək diqqətə çatdırdılar ki, Türkiyə Respublikasında baş verən təbii fəlakət hər bir azərbaycanlının kədərinə səbəb olub. Ölkəmizin hər bir yerində qardaş vətənə edilən yardımda şəhid ailələrinin yaxından iştirak etməsi hər kəs üçün örnəkdir.

Daha sonra şəhid Toğrul Məmmədovun qardaşı Üzeyir Məmmədov tərəfindən Vətən müharibəsində canından keçmiş qəhrəmanlarımızın xatirəsinə həsr edilmiş bir neçə kitab Baş konsul Asip Kayaya təqdim olunub. Şəhid Emin Sadiqovun anası Gülşad Rüstəmova tərəfindən şəhid ailəsinin üzvü kimi, dövlət başçımız tərəfindən təyin edilmiş Prezidentin aylıq təqaüdünün biraylıq məbləği təbii fəlakətdən zərərçəkənlərə ianə edilib. Sonra zəlzələdə həyatını itirmiş türk soydaşlarımızın, şəhidlərimizin ruhuna dualar oxundu. Onu da diqqətə çatdıraq ki, muxtar respublikada şəhid ailələri tərəfindən 10 ton içməli su və maddi yardım da göndərilib.

Fürsətdən istifadə edib tədbirin bir neçə iştirakçısı ilə həmsöhbət oluruq. Yardım aksiyasının, necə deyərlər, ideya müəllifi kimi iki olaraq ***Vaqif Şahsuvarov*** deyir ki, Azərbaycan və Türkiyə dostluq və qardaşlıq münasibətlərindən irəli gələrək bölgədə və dünyada gedən proseslərə münasibətdə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış ediblər. Müasir dövrdə isə hər iki ölkənin bölgədə və dünyada gedən proseslərə vahid prizmadan yanaşmaları, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birlərinin maraqlarını müdafiə etmələri mühüm əhəmiyyət kəsb edir. Təqdirəlayiq haldır ki, hər iki ölkənin siyasi rəhbərliyi indiki şəraitdə daha prinsipial mövqe nümayiş etdirir, hətta ortaq maraqlardan çıxış edirlər. Bunu istər İkinci Qarabağ müharibəsinin baş verdiyi zamanda, istərsə də qardaş ölkənin üzləşdiyi hazırkı təbii fəlakətin yaratdığı çətin şəraitdə bir daha gördük. “Çətin günlər güclü insanlar yaradar”, – deyirlər. Bəli, ölkəmizin yaşadığı ağır sınaq günləri, habelə 90-cı illərin mürəkkəb hadisələri, qardaş ölkənin düşdüyü ağrılı-acılı vəziyyətlər hər iki xalqı bir-birinə daha da doğmalaşdırıb.

Müsahibimiz qeyd edir ki, Türkiyə Respublikasında baş vermiş təbii fəlakət ağır fəsadları, çoxsaylı insan tələfatı yüz minlərlə türk soydaşımızın həyatına ağır zərbələr vurub, hər birimizin mənəviyyatına ciddi təsir göstərir, insanı qəhərləndirir. Belə bir çətin dönəmdə qardaş ölkənin yanında olmaq, onların az da olsa, yaralarına məlhəm olmaq üçün şəhid ailələri də türk soydaşlarımıza maddi yardım göstərmək qərarına gəldik. Qürur hissi ilə deyirəm ki, Vətən müharibəsində canını qurban vermiş şəhidlərimizin ailələri dövlət tərəfindən şəhid övladlarına verilən sosial ödənişin böyük bir hissəsini qardaş ölkəyə ianə etdi. Bu, həqiqətən də, şəhid adına layiq olan ən ali, müqəddəs addımdır, bütün Azərbaycana, yaşından, daşıdığı statusdan asılı olmayaraq, hər kəsə örnəkdir.

Vətən müharibəsi şəhidi Emin Sadiqovun anası ***Gülşad*** ana deyir ki, televiziya kanallarında hər dəfə qardaş ölkədə olan insan tələfatlarını, itkin xəbərlərini izlədikcə göz yaşlarımıza hakim ola bilmirik. Sanki həmin hadisələr bizi iki il əvvələ – Bərdə, Gəncə və Tərtər hadisələrində mənfur ermənilərin xalqımızın başına açdığı həmin faşizm hadisələrinə aparır. Həmin hadisələrdə bizim də qəlpələrə tuş gəlmiş, dağıntılar altında qalan övladlarımız, körpə balalarımız var idi. Bəlkə, elə bu hadisələrə görədir ki, xalqımız qardaş ölkənin yaşadığı hadisələri yaxşı başa düşür. Axı özü də bu çətinliyin şahidi olub. Üzərindən 2 ildən artıq bir müddət keçməsinə baxmayaraq, hələ də həmin hadisələrin acılarını ruhumuzla hiss edirik. Türk soydaşlarımıza belə çətin bir şəraitdə arxa-dayaq olmaq üçün biz də şəhid valideynləri kimi kömək əlimizi uzatmışıq. Gücümüz çatdığı qədər təbii fəlakətdən zərərçəkmiş qardaşlarımıza maddi yardım göstərdik. Sağ olsun, bütün şəhid valideynləri, ölkəmizin azadlığı yolunda canını qurban verən qəhrəman oğullarımızın yaxınları bu müqəddəs işdə əllərindən gələni əsirgəmədilər. İnanırıq ki, buna görə övladlarımızın da ruhu şaddır. Allahdan dünyasını dəyişən soydaşlarımıza rəhmət, yaralananlara şəfa, sağ qalanlara isə səbir arzu edirəm.

Şəhid Bağır Ələkbərovun atası ***Əsəd Ələkbərov***un dediklərindən:

– 44 günlük Vətən müharibəsindən sonra Türk dünyasının qarşılaşdığı bu ağır fəlakət hər birimizin kədərinə səbəb olub. Tək çarə isə bir zamanlar qardaş ölkənin bizə etdiyi kimi, çətin şəraitdə türk soydaşlarımızın yanında olmaq, onlara əlimizdən gəldiyi qədər yardım əlimizi uzatmaqdır. Çox şadıq ki, xalqımızın mənəviyyatlı, vicdanlı insanları bu yardım çağırışlarına səs verir, öz köməklərini əsirgəmirlər. İnanırıq ki, qardaş Türkiyə Respublikası, Türk dünyası bu çətin şəraitin öhdəsindən da layiqincə gələcək. Nə müharibənin dəhşəti, nə təbii fəlakətlərin ağırlığı türkü usandıra bilməz. Əsası böyük liderlərimiz tərəfindən qoyulmuş bu qardaşlığın sonsuz olmasını arzu edir, dünyasını dəyişən türk soydaşlarımıza Allahdan rəhmət diləyirəm.

*Qardaş ölkənin yaşadığı ağrı-acını ifadə etmək üçün söz acizdir... Tək reallıq illər ötsə də, bu iki qardaş ölkənin ən çətin anda belə bir-birinə arxa-dayaq durmasını unutmamaqdır. Çünki bu qardaşlıq nə bu günün, nə dünənin, nə də ötən-keçən illərin yadigarıdır. Uzun Həsənin diplomatik siyasətindən, Mehmet paşanın Sara xatuna “Ana” deyib müraciət etməsindən, Nuru paşanın xalqımızın imdadına çatmasından başlanır bu sülh yolu, qeyrət yolu. İllər bir-birini əvəzlədikcə daha da qüdrətlənir, dosta əmin-amanlıq verir, düşmənin canına vəlvələ salır. Bu gün şəhid ailələrimizin atdığı bu müqəddəs addım bir daha təsdiq edir ki, türk türkə hər zaman arxa-dayaqdır. Qoy ölkəmizdən ayrılan hər bir yardım azad Vətən səmasında şəhidlərimizin ruhuna rahatlıq gətirsin, doğmalarının bu xeyirxah əməli həm onların müqəddəs ruhuna, həm də müzəffər xalqımıza başucalığıdır.*

**Məcid RƏŞADƏTOĞLU**

## Musiqi təhsili müəssisələrinə işə qəbulun müsahibə mərhələsi keçirilib



Müsahibənin keçirilməsi üçün Dövlət İmtahan Mərkəzindən 1, Mədəniyyət Nazirliyindən 1, muxtar respublikada fəaliyyət göstərən alitəhsilli müstəqil ekspert qismində 3 nəfər olmaqla, 5 üzvdən ibarət müsahibə komissiyası yaradılıb. Müsahibə mərhələsində müəllimə verilən tapşırıqların yerinə yetirilməsi üçün 30 dəqiqə vaxt ayrılıb və müəllimin praktiki hazırlığı, peşəkarlıq və ifaçılıq qabiliyyəti yoxlanılıb.

Naxçıvan Muxtar Respublikasında dövlət musiqi təhsili müəssisələrinin ixtisaslı kadrlarla komplektləşdirilməsi və tədrisin keyfiyyətinin artırılması məqsədilə keçirilən müsabiqənin müsahibə mərhələsində komissiya müəllimlərin ixtisas bacarığını müvafiq meyarlar üzrə 5 ballıq sistem əsasında qiymətləndirib. Müsahibədə 12 və ya daha çox bal toplamış müəllim bu mərhələdən keçmiş sayılır. Müsahibənin yekun nəticələri “Müəllimin qiymətləndirilməsinə dair yekun protokol”da öz əksini tapır.

Qeyd edək ki, müsabiqənin test mərhələsində 40 vakant vəzifənin tutulması üçün 25 namizəd iştirak edib, onlardan 6-sı müvafiq keçid balını toplayıb. Müsahibə mərhələsində iştirak edən 6 namizədin hər biri uğur qazanıb. Uğur qazanmış namizədlərin sənədləri müvafiq vəzifələrə təyin olunması üçün aidiyyəti üzrə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Naxçıvan teleradiosu yeni uğurlar əldə edir

Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası tərəfindən 2023-cü ilin yanvar ayında muxtar respublikada fəaliyyət göstərən teleradioların monitorinqi aparılmış, fəaliyyətləri təhlil edilmiş, müəyyən nöqsanlar qeydə alınmışdır. Müşahidə edilən nöqsanlar operativ şəkildə teleradiolara bildirilmiş və aradan qaldırılmışdır.

Hesabat dövründə Naxçıvan televiziyasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin iştirak etdiyi tədbirlərlə bağlı, ümumilikdə, 5 telematerial efirə verilmişdir.

Hesabat ayında televiziyada vətənpərvərlik mövzusu diqqətdə saxlanılmış, bəhs edilən dövrdə “Vətən uğrunda” verilişi yayımlanmışdır. Ay ərzində yayımlanan “Mövzu bizik” verilişində ölkə mediasında ilk dəfə olaraq Zəngəzur dəhlizinin Naxçıvandan başlanan nöqtəsindən xüsusi reportaj hazırlanmışdır. Yanvarın 27-də təqdim edilən “Aktual ekran” verilişində Qərbi Azərbaycandan deportasiya edilən soydaşlarımızın tarixi taleyinə toxunulmuş, mövzu ilə bağlı reportajlar hazırlanmışdır. Həmin gün Azərbaycanın İran İslam Respublikasındakı səfirliyinə qarşı həyata keçirilən terror aktı ilə əlaqədar verilişin xüsusi buraxılışı efirə təqdim edilmişdir.

“Xəbərlər” redaksiyası tərəfindən ötən ay Naxçıvan mediasında ilk dəfə olaraq birbaşa bağlantı yaradılmış, Naxçıvan 5 saylı duz mədənindən canlı yayım vasitəsilə müsahibə alınmışdır. Eyni zamanda Azərbaycanın İran İslam Respublikasındakı səfirliyinə terror hücumu ilə bağlı “Xəbərlər” proqramında canlı yayım olmuşdur.

Hesabat dövründə “Günaydın” səhər proqramı studiya formatı ilə tamaşaçı auditoriyası toplaya bilmişdir. Proqrama mütəmadi olaraq muxtar respublikanın seçilən müğənniləri dəvət edilmiş, onlar rəngarəng musiqi nömrələri ilə çıxış etmişlər.

Naxçıvan radiosu bəhs edilən dövrdə 488 saat efirdə olmuşdur. Ümumilikdə, ay ərzində 105 veriliş və canlı proqram, 344 konsert proqramı təqdim edilmişdir.

Yanvar ayında “Kanal 35” televiziyasının efirinə nəzarət gücləndirilmiş, müvafiq qanunvericiliyin tələblərinə uyğun monitorinqlər aparılmışdır. Şura tərəfindən televiziyada texniki baxış keçirilmiş, avadanlıqlara profilaktik qulluqla bağlı işlərlə tanış olunmuşdur.

Bəhs edilən dövrdə “Naxçıvanın səsi” radiosunda yanvar ayı ərzində müxtəlif proqramlar efirə yayımlanmışdır. Bundan başqa, radioda dinləyicilərin dünyagörüşünü və biliklərini daha da təkmilləşdirmək üçün bir sıra materiallar da efirə təqdim olunmuşdur.

Yanvar ayında Naxçıvan Dövlət Universitetinin televiziyasında tələbələrin yaradıcı gücündən maksimum istifadə olunur. Müsbət cəhət televiziyanın yayımda əməyi keçən tələbələrin gələcəkdə peşəkar jurnalist kimi formalaşmasında xüsusi əhəmiyyətə malik olmasıdır.

“Nuhçıxan” radiosunda yanvar ayında Naxçıvan Dövlət Universitetinin tələbə və müəllimlərinin “Sağlam ol” layihəsindən bəhs edən “Sağlam həyat” verilişi, tələbələrin müxtəlif mövzularda sərbəst işlərini işıqlandıran maraqlı layihələr efirə verilmişdir.

***Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası***

## İlin ən yaxşı elmi-tədqiqat işi







Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin AMEA Naxçıvan Bölməsi ilə birlikdə təşkil etdiyi “Sabahın tədqiqatçıları” layihəsinin iştirakçısı, Naxçıvan Qızlar Liseyinin şagirdi Altunay Tahirli “Naxçıvantəpə yaşayış yeri və onun ətrafının arxeoloji tədqiqi” mövzusu ilə 6 fevral 2023-cü ildə, Ufa şəhərində elmi-tədqiqat işləri ilə bağlı keçirilən XI Ümumrusiya müsabiqəsində iştirak etmiş və birinci dərəcəli diploma layiq görülmüşdür. Onun məqaləsi elmi-tədqiqat işlərinin toplusunda nəşr olunmuş və ilin ən yaxşı elmi işi kimi ikinci dərəcəli diplomla təltif edilmişdir.

**Xəbərlər şöbəsi**

*Bina inşa edib, yurd-yuva salmaq insan həyatının ən vacib tələbatlarından biridir. Hələ Nuh Peyğəmbərdən bu yana insan ayaq basdığı hər yerdə məskən salıb, yaratdığı əsərlərlə özündən sonra bir yadigar qoymağa çalışıb. Elə “Biz ölürük, əsər qalır yadigar” düşüncəsi ilə tikilmiş XII əsr Azərbaycan memarlıq məktəbinin şah əsəri Möminə xatın türbəsi kimi. Bəli, 25 metr hündürlüyü olan bu abidə ötən min ildə bildiyimiz və bilmədiyimiz çox sayda təbii fəlakətlərin sınağından keçərək bu gün də tarixə meydan oxuyur.*

Gəlin açıq danışaq

## Tikintidə əsas məqsəd insan həyatı və təhlükəsizliyi olmalıdır

## *Bəs buna Naxçıvanda necə əməl edilir?*

Təbii fəlakətlərə qarşı dayanıqlı binalardan danışarkən inşaat mütəxəssisləri bunun səbəbini belə qədim abidələrin həndəsi quruluşu ilə yanaşı, tikinti zamanı istifadə olunan materialların keyfiyyəti və konstruktiv quruluşun mütənasib olması ilə də izah edirlər. Şübhəsiz, bütün bunlar tikililərin davamlı olması və onların insan həyatına təhlükə yaratmamasında əsas faktorlardandır. Amma fikrimizcə, daha doğrusu, zaman da göstərir ki, bəli, təkcə Möminə xatın türbəsinin deyil, istənilən tikilinin əsrlərin sınağından çıxa bilməsinin səbəbi onun düzgün, yəni halallıqla inşa olunmasıdır. Şübhə yoxdur ki, hər naxışında Uca Allahın adı həkk olunmuş bu əsəri böyük Memar Əcəmi halallıqla inşa edib ki, abidə bu gün hər işində yalnız cibini düşünən bəzi bordür, yəni qardaş türklərin ifadəsincə desək, “qaldırım mühəndisləri”nin 10 ilə belə dözüm gətirə bilməyən yeni tikililərinə meydan oxuyur. Ona görə də bu günlərdə qardaş ölkədə on minlərlə insan itkisi, milyonlarla insanın evsiz-eşiksiz qalması ilə nəticələnmiş dəhşətli zəlzələdən sonra inşaat işlərində israfçılığa yol vermədən insan rifahına və təhlükəsizliyinə xidmət edən standartlara əməl olunması kimi zəruri şərtlərin gündəmə gətirilməsi bizi də bu məsələyə yenidən nəzər salmağa vadar edir.

Hər kəs bu fikirlə razılaşar ki, bir çoxlarımız “tikinti” deyəndə gözəl memarlıq üslubunda tikilmiş, komfort və bəzək elementlərinin daha çox göz qamaşdırdığı və buna görə də görülən işə qiymət qoyulduğu bir sahə başa düşürük. Hər kəs istəyir ki, yaşadığı ev, məhəllə, küçə, şəhər onun zövqünü oxşasın və eyni zamanda gecəni rahat yata biləcəyi gözəl bir evi olsun. Və bütün bunlar da hamının arzusu, eləcə də dövlətin bu sahədə həyata keçirdiyi ciddi nəzarət tədbirlərinin əsas məğzidir. Qeyd edək ki, belə nəzarət zaman-zaman mətbuatın da gündəmində olmuşdur. Doğrudur, indiyə qədər Naxçıvanda həyata keçirilən tikinti-quraşdırma işlərini yalnız bəh-bəhlə tərifləmişik. Bəzən isə adamların gözü önündə olan kiçik bordür qüsurlarını yada salan vaxtlarımız da olub. Bir vaxtlar, yəni işdən 15 dəqiqə tez çıxan yazıq kənd kitabxanası müdirini, yaxud işdə gecə növbəsində mürgüləyən tibb işçisini tənqid etdiyimiz kövrək vaxtlarda bəndəniz də qəzetimizin 15 may 2013-cü il tarixli nömrəsində şəhərimizin mərkəzindəki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının arxasında olan fəvvarənin ətrafındakı səliqəsizliyi “Saqqallı uşaqlar” adlı kiçik bir satirik yazı ilə öz aləmində, guya ki, tənqid etmişdi.

Bəri başdan deyim ki, o dövrdən 10 il keçsə də, həmin məkandakı mənzərə heç dəyişilməyib. Mənim kimi vaxt tapıb teatra getməsəniz də, 5 dəqiqəliyə buyurun, keçin, baxın! İndi gözümüzü açıb ətrafa daha diqqətlə baxdıqda görürük ki, heç bu “saqqallı uşaqlar” da dəyişilməyiblər. Elə olmasaydı, şəhərimizin yol kənarlarındakı bahalı tikinti materiallarından inşa olunmuş hasarların bəzəyini iş təhvil verilənə yaxın kiminsə göstərişinə uyğun, balta ilə çapıb, yerinə Möminə xatın türbəsinin üzərindəki naxışların bənzərini yapışdırmazdılar. Milyon manatlarla büdcə vəsaitinin israfçılığı ilə nəticələnmiş bu və bunun kimi digər “müsbət təcrübə”nin də ki, aqibəti bəllidir. Şəhərimizdəki idarə, məktəb, universitet binalarının, elə lap bizim redaksiyanın girişinə döşənmiş yağışda, qarda xokkey meydançası kimi sürüşkən, hamar pillə daşlarına baxarkən fikirləşirsən ki, bəzi dırnaqarası inşaatçılarımız böyük Əcəminin əsərini təqlid etməkdənsə, yaz-qış demədən insanların yıxılıb şikəst olmasına, ağır zədələnməsinə səbəb olan bu cür yarıtmaz işləri haqqında heç düşünüblərmi?! Axı on beş yaşlı uşaq da bilir ki, güzgü kimi cilalanmış bu sürüşkən daşlar pillələri deyil, divarları, pəncərə altlıqlarını bəzəmək üçündür. Hələ mən şəhərimizin mərkəzi küçələrində, turistlərin gəzib-dolaşdığı istirahət məkanlarında yerli camaatın əsəbiliklə “tövlə salı” adlandırdığı və min kvadratmetrlərlə sahəyə döşənmiş, yağışda palçığa dönən əyri-üyrü, kələ-kötür dağ daşlarını demirəm! Görünür, bəzilərinin bu cür bərbad bəzək həvəsi, ya da ki bəzək adı ilə pul qazanmaq həvəsindən qaynaqlanıb ki, başımız üzərində olması gərəkən səkkizguşəli ulduzumuzu adamların gur axın etdiyi bəzi məkanlarda döşəməyə həkk ediblər. Çox üzücü və təəssüfdoğurucudur!

Bütün bunların hamısına birtəhər səbir etmək olar. Necə deyərlər, bundan sonra cəmi-cümü beş-on milyon manatlıq xərci var bu işlərin. Zəhmət çəkib ciblərindən ödəyərlər! Amma tikintidə kiminsə səhlənkarlığından, yaxud tamahından qaynaqlanan elə fəsadlar törənə bilər ki, bunların da son nəticəsi yıxılan evlər, dağılan ocaqlar, məhv olan insanlardır. Bəli, istər bina sahiblərinin, istər memar və mühəndislərin olsun, kimlərinsə səhv qərarı ilə mərtəbə və ya balkon əlavə olunaraq seysmik davamlılığı ciddi zərərgörən binaların, son nəticədə, nəyə səbəb olduğunu bu gün ürəkağrısı ilə “Xəbərlər”dən izləyir, günahkarların cəzalandırılmasını istəyirik. Gələnən nəticə isə odur ki, insan gördüyü bütün işlərdə elmi biliklərə və onlara söykənən qanuni tələblərə əsaslanmalıdır ki, sonda belə faciəvi hallarda günahı özündə axtarmasın. Qanun isə tələb edir ki, sökülməsi lazım gələn köhnəlmiş, yaxud qəzalı vəziyyətdə olan binalar heç zaman təmir edilməməli, fundamenti möhkəm, dayanıqlı binalara qətiyyən layihədən kənar mərtəbə və ya eyvan artırılmamalıdır. Bəziləri belə yamaq konstruksiyaların, guya, gözəllik və yaxud komfort gətirdiyini düşünsələr də, bir gün yer titrəyəndə diz çöküb Yaradana yalvaracaqlarını da unutmamalıdırlar! Yaxud elmi bilikləri heçə sayıb şəhərimizdəki hündürmərtəbəli, çoxbloklu binaların ortasında “seysmik pay” məqsədilə nəzərdə tutulmuş boşluğu beton töküb dolduranlara nə deyəsən? Axı, bu vacib konstruksiya elementi qanunla onun üçün nəzərdə tutulub ki, Naxçıvan kimi 9 ballıq seysmik zonada baş verə biləcək zəlzələlər binaları titrədən zaman dağıdıcı güc zəifləsin. Binalarımızın təmiri zamanı “seysmik payı” kosmetik görüntü xatirinə dəmir-betonla bağlayıb binaların bu şəkildə qəzalı vəziyyətə salınması isə bu barədə rəylərini soruşduğumuz Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Fövqəladə Hallar Nazirliyi Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi mütəxəssislərinin də fikrincə, qətiyyən yolverilməz haldır.

*İnanırıq ki, araşdırdığımız və hər kəsi narahat edən bu məsələlər barəsində təmir-tikinti işlərinin keyfiyyətinə və bədbəxt hadisələrin baş verməməsinə cavabdeh olan aidiyyəti qurumlar ciddi reaksiya verəcəklər! Çünki bu gün tikintidəki bir səhlənkarlıq sabah kütləvi insan tələfatı ilə, müşayiət olunan faciələrlə nəticələnə, təqsirkarlar isə birbaşa hüquq-mühafizə orqanları qarşısında cavabdeh ola bilərlər.*

**Əli CABBAROV**

Redaksiyamıza yazırlar

## Turan elim, əməldaşım, Türkiyəm

***Bu deprem sarsıtdı bütün dünyanı,***
***Geçmiş olsun can qardaşım, Türkiyəm.***
***Hər bir acın acımızdır, bilirsən.***
***Vuran qəlbim, qan qardaşım, Türkiyəm.***

***Tarixboyu acılarla sınandın,***
***Haqsız yerə dəfələrlə qınandın.***
***Sən israrla bir amala dayandın***
***Haqq yolçusu, qəm yoldaşım, Türkiyəm.***

***Yaman gündə biz gəlmişik yanına,***
***Düşmənlərin sevinməsin ahına.***
***Dönəcəksən sən əvvəlki halına***
***Turan elim, əməldaşım, Türkiyəm.***

**Xəyyam AĞASOY**
***Naxçıvan Müəllimlər İnstitutunun Pedaqoji fakültəsinin II kurs tələbəsi***

## Dərdin dərdimizdir, qardaş Türkiyəm



Bildiyimiz kimi, dünyada bir sıra dağıdıcı təbii fəlakətlər mövcuddur. Elə vaxtlar olur ki, dünya bu kimi hadisələr qarşısında aciz qalır. Məsələn, bir sıra ölkələrdə daşqınlar, tornadolar, zəlzələlər və sair baş verir. Bu yaxınlarda qardaş Türkiyədə baş vermiş zəlzələ əsrin fəlakəti hesab edildi. 6 fevral 2023-cü il tarixdə Kahramanmaraş, Malatya, Gaziantep, Hatay, Adana, Kilis, Adıyaman, Diyarbakır, Şanlıurfa, həmçinin Osmaniyədə 7.7 bal gücündə zəlzələ baş verib. Təbii fəlakət nəticəsində 30 mindən çox insan həlak olub. Tarixdə Türkiyədə belə dağıdıcı gücdə zəlzələ sonuncu dəfə 1999-cu ildə baş vermiş və bu təbii fəlakətdə də xeyli sayda insan həlak olmuşdur. Dahi Azərbaycan şairi Bəxtiyar Vahabzadə həmin illərdə “Deprem” şeirini yazmışdır. Həmin şeirin misraları bu gün də dəhşətli faciənin ağrı-acısı kimi qulaqlarımızda səslənir:

*Eşidincə ata yurdda depremi,*
*Axdı yaşım, döndü başım, Türkiyə.*
*Hər dərdimin, hər qəmimin ortağı,*
*Can qardaşım, qan qardaşım, Türkiyə.*

Bəli, bu fəlakət baş verdiyi andan hər birimizin ürəyi qardaş Türkiyə ilə döyünür. Böyükdən-kiçiyə hər kəs televiziyada, sosial şəbəkələrdə son məlumatları öyrənməyə çalışır. Ölkə başçımızın göstərişi ilə təbii fəlakət baş verdikdən dərhal sonra Türkiyəyə Fövqəladə Hallar Nazirliyi tərəfindən xüsusi axtarış qrupu göndərildi. Həmçinin Azərbaycandan qardaş ölkəyə humanitar yardım aksiyasına başlanıldı. Bu yardıma doğma Naxçıvanımız da səylə qoşuldu. Naxçıvanda Türk Konsulluğunun qarşısı yardımlarla dolub daşdı. Həmin zaman oradan keçəndə böyük qürur hissi keçirdim. Ona görə ki, Azərbaycan və türk xalqları həmişə bir olub, bir olacaq. Atalarımızın bir məsəli var: “Güc birlikdədir”. Bax bu sözün deyiləsi əsl yeri məhz buradır. Sosial şəbəkədə xəbərləri oxuyarkən bir video qarşıma çıxdı. Həmin videoda Şəkidən olan 70 yaşlı Hikmət baba Türkiyənin yardım fonduna 100 AZN ianə etmişdir. Maraqlısı da odur ki, o həmin pulu borc götürüb və deyirdi ki, öz təqaüdünü alan kimi həmin pulu qaytaracaq. Hikmət baba bizim şanlı Vətən müharibəmiz zamanı da 180 manat təqaüdünü orduya yardım fonduna köçürmüşdü.

Televiziyada “Xəbərlər”i izləyərkən ürəyim pərən-pərən olur. Bunun səbəbi də odur ki, zəlzələ bölgəsində uşaqların dağıntı altından çıxarılandan sonra həmin xilasediciyə ilk verdiyi bu sualdır: “Anam və atam haradadır?” Düzdür, bəzilərinin valideynləri tapılır, ancaq elələri olur ki, heç valideynlərindən xəbər-ətər yoxdur.

Yaxın günlərdə fransalı fotoqraf bir şəkil çəkmişdi. Həmin şəkildə ata dağıntılar altında qalan qızının əlini buraxmırdı. Həqiqətən, çox kədərləndirici bir foto idi. Artıq zəlzələdən günlər keçib, dağıntılar altından nə qədər insan xilas edilib. Allahdan tək bir arzumuz var ki, bu təbii fəlakət bir daha baş verməsin! Onu da deyək ki, bu təbii fəlakət faciə olmaqla bərabər, Türkiyə-Azərbaycan dostluğunun bariz nümunəsinə çevrildi. Necə deyərlər, “Bir millət iki dövlət!” olduğumuzu bir daha göstərdik.

**Əmir İMANOV**
***Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi***

### Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi *“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası qanununa uyğun olaraq tender və kotirovka sorğusunu elan edir*

Tender və kotirovka 15 lot üzrə keçirilir:

*lot 1 -yaz-yay mövsümü üçün müxtəlif növ əşya əmlaklarının satın alınması*
*lot 2 - hərbi ayaqqabıların satın alınması*
*lot 3 - dəftərxana ləvazimatlarının alınması*
*lot 4 - ehtiyat hissələri və sürtkü materiallarının alınması*
*lot 5 - yuyucu maddələri və təmizlik ləvazimatlarının alınması*
*lot 6 - təsərrüfat mallarının alınması*
*lot 7 - ərzaq məhsullarının alınması*
*lot 8 - dərman və sarğı preparatlarının alınması*
*lot 9 - mətbəə məhsullarının alınması*
*lot 10 - digər malların alınması*
*lot 11 - tikili və avadanlıqların cari təmiri işlərinin satın alınması*
*lot 12 - istehlak yönlü müxtəlif xidmətlərin satın alınması*
*lot 13 - maşın və avadanlıqların satın alınması*
*lot 14 - sair torpaq, tikili və avadanlıqların satın alınması*
*lot 15 - abadlaşdırma xidmətlərinin satın alınması*

Tender və kotirovka iştirakçılarına təklif edilir ki, öz qiymət təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün podratçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tender və kotirovkada iştirak etmək istəyənlər 15 lot üzrə Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, bina 41 ünvanında yerləşən Fövqəladə Hallar Nazirliyindən (əlaqələndirici şəxs: Qurbanov Həsən Tahir oğlu, tel: +99450-577-21-11) ala bilərlər.

***Hesab:AZ21NABZ12360100000000005944***
***VÖEN 0200312291***
***Bank:Mərkəzi Bank Naxçvan MR İdarəsi***
***Kod: 502906***
***VÖEN:0200087741***
***M/H:AZ88NABZ01451700000000012944***
***S.W.İ.F.T: NABZAZ2C***

İddiaçılar tender və kotirovkada iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tender və kotirovkada iştirak etmək üçün yazılı müraciət*
*2. Tender və kotirovkada iştirak haqqının ödənilməsi barədə bank sənədi*
*3. Tender və kotirovka təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)*
*4. Tender və kotirovka təklifi dəyərinin 1% -i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır)*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender və kotirovka proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender və kotirovka təklifi və bank təminatı istisna olmaqla) 15 fevral 2023-cü il saat $17^{00}$-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 15 fevral 2023-cü il saat $17^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, bina 41-də yerləşən Fövqəladə Hallar Nazirliyinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 24 fevral 2023-cü il tarixdə saat $11^{00}$-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender və kotirovka komissiyası***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 118